# AZƏRBAYCAN AVROPA ŞURASININ DAHA BİR MÜHÜM MÜQAVİLƏSİNƏ İMZA ATIB



***Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizənin gücləndirilməsi, xüsusilə cəzanın labüdlüyü prinsipinin təmin edilməsi üzrə önəmli tədbirlər görülür, effektiv beynəlxalq əməkdaşlıq həyata keçirilir.***

Cinayətkarlıqla qlobal mübarizədə fəal iştirak edən ölkəmiz bu sahədə beynəlxalq əməkdaşlığın səmərəsinin artırılması, müvafiq konvensiyaların təkmilləşdirilərək müasir çağırışlara uyğunlaşdırılması ilə bağlı öz töhfəsini verir, Ədliyyə Nazirliyi tərəfindən təkliflər irəli sürülür, o cümlədən yeni müqavilələrin hazırlanmasında yaxından iştirak edilir.

Hakimiyyet.info.az xəbər verir ki,ötən il dövlətimiz tərəfindən "Ekstradisiya haqqında" Avropa Konvensiyasının təslimetmə prosedurunun effektivliyinin artırılmasına xidmət edən Dördüncü Əlavə Protokolu ratifikasiya olunub, bu sahədə səmərəli əməkdaşlıq aparılır.

Eyni zamanda "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasının müvafiq sorğuların elektron qaydada göndərilməsini, dindirmələrin videokonfrans vasitəsilə aparılmasını, Konvensiyanın əhatə dairəsinin genişləndirilməsini və s. məsələləri özündə ehtiva edən İkinci Əlavə Protokolunun cinayətkarlıqla mübarizədə səmərəliliyin və operativliyin artırılmasında əhəmiyyəti nəzərə alınaraq Azərbaycan tərəfindən həmin sənədə qoşulması qərara alınıb.

Bununla əlaqədar dövlətimiz adından bu sənədi imzalamaq üçün ölkə başçısı tərəfindən verilmiş səlahiyyətə əsasən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun Strasburqa səfəri çərçivəsində Avropa Şurası Baş katibinin müavini Byorn Berqenin və digər məsul şəxslərin iştirakı ilə həmin Protokolun imzalanması mərasimi keçirilib.

Sonra keçirilmiş görüşdə ədliyyə naziri tərəfindən Avropa Şurası ilə əməkdaşlıqda ölkəmiz üçün 2022-2025-ci illər üzrə qəbul edilmiş Fəaliyyət Planının implementasiyası çərçivəsində Avropa məhkəməsi qərarlarının icrası ilə bağlı layihənin həyata keçirildiyi vurğulanıb, ədliyyə, o cümlədən penitensiar, habelə məhkəmə sistemində aparılan və beynəlxalq aləmdə təqdir olunan islahatlar və yeniliklər barədə verilmiş məlumat maraqla qarşılanıb.

Baş katibin müavini B.Berqe Avropa Şurasının ölkəmizlə əməkdaşlığının yüksək səviyyəsini qeyd edərək may ayında Avropa Şurası tərəfindən üzv dövlətlərin başçılarının Sammitinin keçiriləcəyini bildirib.

Söhbət zamanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Böyük Qələbəmizlə azad edilmiş torpaqlarımızın Ermənistan tərəfindən büsbütün minalanmasına toxunularaq mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşının həlak olduğu və ya yaralandığı bildirilib, bununla bağlı ANAMA tərəfindən hazırlanmış xüsusi kitab təqdim edilib.



Səfər çərçivəsində Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri xanım Siofra O'Liri ilə ikitərəfli görüş keçirilib.

Azərbaycan və Avropa Məhkəməsi arasında səmərəli əməkdaşlığın qeyd olunduğu görüşdə ölkəmizdə həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatları barədə ətraflı məlumat verilib. Həmçinin, ədalət mühakiməsinin həyata keçirilməsində beynəlxalq normaların, o cümlədən Məhkəmənin presedent hüququnun tətbiqinə xüsusi önəm verildiyi bildirilib, bu məqsədlə bir çox milli təlimçilərin hazırlanması, hakimlərin, hakimliyə namizədlərin və digər hüquqşünasların tədrisində beynəlxalq ekspertlərin, o cümlədən Avropa Məhkəməsi hakimlərinin iştirakı, həmin Məhkəməyə tədris səfərlərinin faydası qeyd edilib. Avropa Məhkəməsinə uzun müddət ezam olunan hakimlərimizin beynəlxalq təcrübəyə yiyələnməsinin əhəmiyyəti vurğulanıb.

Eyni zamanda Avropa Məhkəməsinin qarşısında duran çağırışlar, o cümlədən yüksək iş yükü və bu problemin həlli yolları barədə fikir mübadiləsi aparılıb, digər maraq doğuran məsələlər müzakirə olunub.

Tədbirdə Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov iştirak ediblər.

# DÖVLƏT SİYASƏTİMİZİN ANA XƏTTİNDƏ VƏTƏNDAŞ MƏMNUNLUĞU DAYANIR

Ölkə rəhbərinin göstərişinə əsasən yerlərdə vətəndaşlarının qəbulunu təşkil edib onların qayğı və problemlərinin həlli sahəsində atılan mühüm tədbirlərdən biri də cənub bölgəsinin mirvarisi olan Lənkəran rayonunda aprelin 5-də Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun rayonun əhalisinin sayına görə ən iri yaşayış məntəqələrindən olan Boladi kəndinin sakinləriylə səyyar qəbul-görüşü olmuşdur.

Görüşdə Lənkəran şəhər İcra hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında Prezidentimizin apardığı uğurlu daxili və xarici siyasətindən danışaraq bildirdi ki, ölkə rəhbəri hər bir məmura xalqın, vətəndaşın yanında olması tapşırığını verərək vətəndaş məmnunluğunun yaradılmasını tələb edir. Prezidentimiz başda olmaqla bütün dövlət məmurları Azərbaycan xalqının xidmətçiləridir. Bu, dövlət siyasətimizin ana xəttidir.



Həmişə olduğu kimi, bu görüşdə də Taleh Qaraşov Boladi sakinlərini, ilk öncə şəhid ailələrini, qaziləri, kəndin ağsaqqal, ağbirçəklərini, həssas təbəqə nümayəndələrini dinləmiş, kəndin çoxsaylı ziyalıları ilə fikir mübadiləsi aparmış, gənclərin məşğuliyyətiylə bağlı onların düşüncə və təkliflərini müzakirə etmişdir. Rayon rəhbəri və Prezidentin yerlərdə nümayəndəsi kimi həmişə vətəndaşların yanında olduğunu söyləyən Taleh Qaraşov bildirib ki, ölkə rəhbərinin tapşırığına əsasən şəhid ailələrinə xüsusi diqqət bundan sonra da göstəriləcək. Kənd sakinlərinin qaldırdığı əksər problemlərin həll edilməsi üçün Taleh Qaraşov yerindəcə tapşırıqlar vermişdir.

İcra başçısı səyyar qəbulda vətəndaşlar tərəfindən qaldırılan bütün məsələləri həssaslıqla dinləyib, kənd camaatının qayğı və problemləri ilə maraqlanıb, onları narahat edən və icra hakimiyyətinin səlahiyyətlərinə aid bütün məsələlərin həlli ilə bağlı yerindəcə göstərişlərini verib, icra hakimiyyətinin səlahiyyətlərinə aid olmayan məsələlər barədə aidiyyəti qurumlara rəsmi müraciət ünvanlanmasını və nəticəsinə dair vətəndaşların məlumatlandırılmasını səlahiyyətli şəxslərə tapşırıb.

Görüşün sonunda kənd sakinləri Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya xalqa göstərilən qayğı üçün minnətdarlıqlarını bildirdilər.

***Şəfi Əhmədov,***
***"HAKİMİYYƏT" qəzeti***



# İLK MİLLİ KONSTİTUSİYAMIZIN YARADICISI

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ulu öndər Heydər Əliyevin 100 illik yubileyi günlərində müasir tariximizin parlaq və silinməz səhifələri ölkəmizin hər yerində qeyd olunur. Xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir.

Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış uğurlu neft strategiyasının təməlini qoydu.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə uzun illər böyük ehtiyac olacaq.

Ümummilli liderimizin 1969-1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

Müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi Heydər Əliyev olmuşdur. Mürəkkəb vəziyyətdə, 1993-cü ilin yayında ulu öndər xalqın istəyilə Bakıya qayıdıb hakimiyyətə əhbərliyə başladı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmağa başlayan Heydər Əliyev Azərbaycanda keçmiş sovetlər birliyindən miras qalmış rejim əvəzinə demokratik hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı dərk edirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Hüquq-mühafizə orqanları tərəfindən müvəffəqiyyətlə həyata keçirilən qəti tədbirlər nəticəsində cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa son qoyuldu.

Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini - ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi cox ciddi və məsuliyyətli vəzifəni bilavasitə öz üzərinə götürən dahi öndərimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir.

Heydər Əliyev: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" - deyərək, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratdı.

***Zaur Əlizadə,***
***Nərimanov rayon Məhkəmə İcra şöbəsinin böyük məmuru***

# EKOLOJİ TERRORA "YOX!" DEYİRİK!



27 sentyabr 2020-ci il tarixdə Müzəffər ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin "hücum " əmrinə 30 il düşmən tapdağına çevrilmiş Qarabağ zəncirlərini amansızcasına qırmaqla cavab verdi. Vətən uğrunda qurban gedənlərin bir qətrəsinin yerdə qalmayacağı qisas günü yetişmişdi. Azərbaycan ordusu hələ 2016-cı ilin Aprel döyüşlərində nəyə qadir olduğunu göstərmişdi. Lakin düşmənin qan tutmuş gözləri bunu görmək istəmirdi. 30 ildən sonra düşmən artıq " böyük Ermənistan " xülyaları ilə yaşadığı vaxt Müzəffər ordumuz qartal qanadlarını gərib onun başının üstünü aldı.

Doğma Azərbaycanımızın 44 günlük Vətən müharibəsində qazandığı şanlı tarixi Qələbəsinin hər birimiz şahidləriyik. Müzəffər ordumuz Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın yeni tarixini yazdı.Azərbaycan gəncləri Vətən Müharibəsində böyük qəhrəmanlıq nümunəsi nümayiş etdilər.Vətənpərvərlik ruhunda,dövlətə sədaqət ruhunda yetişmiş Azərbaycan gəncləri torpaqlarımızı işğalçılardan təmizlədilər. İşğal edilmiş torpaqlarda heç vaxt olmayan , amma əslən o torpaqlardan olan gənclər əzəli torpaqlarının hər qarışı uğrunda aslan kimi vuruşdular. Bütün Azərbaycan xalqı , bütün Azərbaycan gəncləri cənab Prezidentin ətrafında bir yumruq kimi sıx birləşərək düşməni məğlub edib, torpaqlarımızı düşməndən azad etdilər, Ali Baş Komandana öz dəstəklərini ifadə etdilər. Azərbaycan gəncləri həm ön cəbhədə, həm də arxa cəbhədə - informasiya müharibəsində də düşmənin layiqli cavabını verdilər. Gənclərimizin doğma vətənimizin müdafiəsində, torpaqlarımızın işğaldan azad edilməsində, ərazi bütövlüyünün bərpa edilməsində, daima ön cərgələrdə olmaları və bu yolda canlarını qurban verərək şəhidlik zirvəsinə yüksəlmələri ilə bütün Azərbaycan xalqı fəxr edir. Qürurverici haldır ki, Azərbaycan ordusu sıralarında vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyəti gənclərdən ibarət idi. 2020-ci ilin 27 sentyabr tarixində başlanan əks-hücum əməliyyatlarında iştirak edən gənclərimiz, həmin tarixdən bu günə kimi illər ərzində işğal altında qalan torpaqlarımızın böyük hissəsini işğalçılardan azad etdilər. İndi həmin torpaqlarda - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarında, Hadrut, Ağbənd qəsəbələrində, Suqovuşanda və noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük fəxarət və qürur hissi ilə elan etdiyi "Qarabağın mirvarisi" Şuşa şəhərində Azərbaycan bayrağı dalğalanır. Bu böyük tarixi qələbədə gənclərimiz əsl şücaət və qəhrəmanlıq nümayiş etdirdilər. Gənclərimizin vətənpərvərlik əzmi möhtəşəm idi. Dövlət başçısı öz çıxışlarında ordumuzun uğurlarını yüksək qiymətləndirərək bildirmişdir: "Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!" Doğrudan da, hərbçilərimizin qəhrəmanlığı, fədakarlığı, şücaəti hər bir azərbaycanlı üçün, gənc nəsil üçün örnək olmalıdır. Bu gün respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik olan gənclər formalaşıb. Azərbaycan gənclərinin dövlətimizin ictimai-siyasi həyatında rolu hər gün artmaqdadır və hazırda respublikada mövcud olan gənclər təşkilatları dövlətin yaratdığı şərait sayəsində fəaliyyət göstərir. Məhz dövlət başçısının gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlətin bu qayğısını həmişə hiss edərək öz nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Qarabağ həqiqətlərinin dünyaya, xüsusən də münaqişələrin həlli ilə məşğul olan beynəlxalq təşkilatlara çatdırılması üçün bütün imkanlardan istifadə edən Azərbaycan gəncləri düşmənə adekvat cavab verdilər. Nəticədə gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi.

Azərbaycan gəncliyi bu gün də meydandadır. Haqq-ədalət uğrunda gedən müharibə günlərində informasiya müharibəsində fəal olduğu kimi, indi də haqq səsini bütün dünyaya duyurmaq üçün ekoloji terrora qarşı aksiyaya qoşulublar. Ekoloji terror hər hansı bir ölkə və yaxud şəxslər tərəfindən bilərəkdən digər ölkənin təbiətinə, flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə vurulan ziyandır. Ermənistan işğalçı dövlət olmaqla yanaşı , həm də , ekoloji terrorçu bir dövlət kimi yalnız Cənubi Qafqaz regionunda deyil, bütün bəşəriyyət üçün təhlükəlidir. Düşmən tərəfindən döyüş mövqelərində hərbi hissələrin və hərbi texnikanın yerləşdirilməsi, mühəndis-istehkam qurğularının inşası, şəxsi heyətin və texnikanın manevr etməsi məqsədilə əlaqələndirici yolların çəkilişi, torpaq qazıntı işlərinin aparılması zamanı ağac və kolların qırılması, otlaq sahələrinin yandırılması və s. nəticəsində flora və faunaya ciddi ziyan dəyib. Həmin ərazilərdə düşmən ordusu tərəfindən görülən işlər Azərbaycan təbiətinin məhvinə səbəb olan ekoloji terror aktı kimi qiymətləndirilməlidir.

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının , xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəallar və QHT təmsilçilərinin Şuşa şəhərində -Laçın -Xankəndi yolunda 12 dekabr 2022-ci il tarixdən başlayan aksiyası bu gün də davam edir. Gənclər 115 gündür ki, qışın soyuğuna, şaxtasına baxmayaraq bu aksiyada yüksək fəallıq nümayiş etdirirlər.İrəli, Azərbaycan gəncləri! Biz talançıların hərəkətini pisləyir, ekoloji terrora " Yox!" deyirik!

***Şahbazzadə İlqarə Mahir qızı,***
***Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 1-ci kurs tələbəsi***

# "SƏDƏRƏK" GÖMRÜK POSTUNDA DƏRMAN PREPARATLARI AŞKAR EDİLİB

Hakimiyyet.info.az xəbər verir ki, Naxçıvan Baş Gömrük İdarəsinin Əməliyyat və İstintaq İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında dərman preparatlarının qanunsuz olaraq ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.

Belə ki, Baş İdarənin "Sədərək" gömrük postunda Türkiyədən ölkəmizə gələn "Mercedes Benz" markalı yük nəqliyyat vasitəsi saxlanılıb və avtomobilin sürücüsü şifahi sorğu-sual olunub.

Yoxlama zamanı vətəndaşın idarə etdiyi nəqliyyat vasitəsinin yük hissəsindən gömrük orqanına bəyan etmədiyi 74 adda 2480 qutu müxtəlif dərman preparatları aşkar edilib.

